İctimai-siyasi qəzet

# QƏLƏBƏ



TƏSİSÇİLƏR: SALYAN RAYON İCRA HAKİMİYYƏTİ VƏ REDAKSİYANIN JURNALİST KOLLEKTİVİ

15 oktyabr 2021-ci il, № 31-32 (8.621) | Qəzet 21 fevral 1924-cü ildən çap olunur | qelebesalyan@gmail.com

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, bu gün Hadrut qəsəbəsinin işğaldan azad olunmasının birinci ildönümüdür. Sizi və bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Bu günü sizinlə birlikdə burada - Hadrutda qeyd etmək, hesab edirəm ki, xüsusi məna daşıyan hadisədir. Biz uzun fasilədən sonra Hadruta - Xocavəndə qayıtmışıq. Döyüşərək, qan tökərək, şəhidlər verərək qayıtmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qanı, canı bahasına, hərbçilərimizin şücaəti, qəhrəmanlığı hesabına biz tarixi ədaləti bərpa etdik, işğalçıları doğma torpaqlarımızdan qovduq və doğma torpaqlarımıza qayıtdıq. Bu gün artıq Hadrutun və ümumiyyətlə Qarabağın yeni dövrü başlayır.

Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsindəki əməliyyatlar sırasında xüsusi əhəmiyyət daşıyan əməliyyatdır. Həm hərbi nöqteyi-nəzərdən, həm strateji nöqteyi-nəzərdən bu əməliyyatın çox böyük əhəmiyyəti var idi. Bu əməliyyatın uğurla başa çatması bizə imkan verdi ki, öz hədəfimizə - Qarabağın azad edilməsinə nail olaq. Hadrutun yerləşməsi bu bölgədə strateji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir, çünki dağlıq ərazidir. Qəsəbə ətrafında yerləşən təpələr böyük əraziyə nəzarət etməyə imkan verir və Hadrutu götürmək hərbi nöqteyi-nəzərdən çox çətin idi. Eyni zamanda, Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı. Onu da bildirməliyəm, baxmayaraq ki, müharibə zamanı Ermənistan ordusunda on mindən çox fərari olmuşdur və bəzi yaşayış məntəqələrindən onlar tələm-tələsik qaçaraq çıxmışdılar, amma Hadrutda dirəniş göstərdilər, müqavimət göstərdilər və burada gedən şiddətli döyüşlər bir neçə gün davam etmişdir. Buna baxmayaraq, Azərbaycan əsgəri, zabiti qarşısında onlar öz acizliyini dərk edərək burada da məğlubiyyətə uğradılar.

Hadrut əməliyyatının əhəmiyyəti ondadır ki, Ermənistan rəhbərliyi və Ermənistan ordusu gözləmirdi ki, biz Cəbrayıldan sonra Hadrut istiqamətinə gedəcəyik. Onlar hesab edirdilər ki, biz Füzuli istiqamətinə gedəcəyik. Baxmayaraq ki, Hadrutda onların çox böyük canlı qüvvəsi var idi, bizi gözləmirdilər. Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək doğrudan da çox böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik. Göstərdik ki, heç kim və heç nə bizim qabağımızda dura bilməz, nəyin bahasına olursa-olsun, biz bütün torpaqlarımızı azad edəcəyik.

Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, Hadrut əməliyyatı ilə bağlı Ermənistan mətbuatında yalan informasiyalar kifayət qədər çox idi. Biz artıq Hadrutun ətrafında yerləşən bütün dağları işğalçılardan təmizləyəndən sonra aydın oldu ki, qəsəbənin götürülməsi, sadəcə olaraq, müəyyən zaman tələb edir. Biz az itkilərlə qəsəbəni götürmək əzmində idik və buna da nail olduq. Ermənistan rəhbərliyi və Ermənistan Müdafiə Nazirliyi isə bəyan edirdi ki, Hadrut ermənilərin əlindədir. Guya ki, onlar növbəti dəfə taktiki geriləmə ediblər və indi Hadruta qayıdıblar, Azərbaycan əsgərlərini Hadrutdan çıxarıblar. Bütün bu yalanları müşahidə edərək, sadəcə olaraq, təəccüb edirdim. Çünki açıq-aydın idi ki, Hadrut artıq bizdədir. Mən əmr verdim Hadrutda Azərbaycan bayrağı qaldırılsın ki, ermənilərin bu yalanlarına son qoyulsun. Ancaq ondan sonra - Azərbaycan əsgər və zabitləri bizim dövlət bayrağımızı Hadrutda qaldırıb mənə raport verəndən sonra artıq Ermənistan rəsmi təbliğatı etiraf etdi ki, Hadrut Azərbaycan Ordusunun nəzarətindədir.

Bu, bir daha onu göstərir ki, Ermənistan təbliğatı istər işğal dövründə, istər müharibə dövründə, istərsə də postmüharibə dövründə yalan üzərində qurulub. Onların tarixi də saxtadır, keçmişi də saxtadır, dövlətçiliyi də saxtadır, mifologiyası da saxtadır. Sadəcə olaraq, dünya erməniliyi yaşadığı ölkələrdə elə bir yalan rəy yaradıb ki, sanki Ermənistan əhalisi əsrlər boyu burada yaşayıb. Hadruta ermənilər İrandan XIX əsrdə köçürülüblər. Bunu hamı bilir. O vaxta qədər burada erməni yaşamırdı. Tarixi saxtalaşdıraraq, bu gün də bugünkü reallıqları saxtalaşdırırlar. Müharibə dövründə biz Ermənistan rəsmi orqanlarından nə qədər yalan eşitdik. Onların Müdafiə Nazirliyindən, - yəqin ki, onun adını gərək dəyişdirib yalan nazirliyi qoysunlar, - o qədər yalan, o qədər cəfəng informasiyalar gəlirdi ki, həm biz, həm də beynəlxalq ekspertlər, sadəcə olaraq, təəccüb edirdilər. Hadrutla bağlı bu yalanın dərəcəsi ən pik həddə çatmışdı. Çünki Hadrutun azad edilməsi Ermənistana çox böyük mənəvi-psixoloji sarsıntı yaşatdı.

Birincisi ona görə ki, onlar hesab edirdilər, Azərbaycan Ordusu Hadrutu heç vaxt azad edə bilməz. İkincisi ona görə ki, Hadrut keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun inzibati mərkəzi idi, rayon mərkəzi idi. Ermənistan rəhbərliyi və Ermənistan ictimaiyyəti gördü ki, bizim üçün bütün torpaqlar bizim torpaqdır - istər Füzuli olsun, istər Cəbrayıl olsun, istər Zəngilan olsun, istər Hadrut olsun, Şuşa olsun, Suqovuşan olsun. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən yaşayış qəsəbələrini işğalçılardan azad etmək Ermənistana göstərdi ki, Ermənistan torpaqlarımızdan çıxmaq haqqında öhdəlik götürməyənə qədər biz dayanmayacağıq və dayanmadıq. Ermənistan artıq kapitulyasiya aktına imza atmağa hazır olduqdan, bizə bu haqda məlumat daxil olduqdan sonra dedik ki, bəli, dayanırıq və dayandıq, qalan rayonları siyasi yollarla geri qaytardıq.

Ona görə Hadrut əməliyyatının həm strateji, həm tarixi, həm mənəvi-psixoloji baxımdan çox böyük əhəmiyyəti var idi. Bu gün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Hadrut rayonu işğalçılardan tam azad edilmişdir. Müharibə başa çatandan sonra Ermənistanın Şirak vilayətindən keçmiş Hadrut rayonunun bəzi kəndlərinə xüsusi diversiya qrupu göndərilmişdi. Onlar noyabrın sonlarında Laçın dəhlizindən keçərək bu bölgələrə daxil oldular və bildiyiniz kimi, tərksilah edildilər, həbs olundular. Cinayət törətməmiş hərbçilər geri qaytarıldı, cinayət törətmiş hərbçilər, diversantlar artıq məhkəmə qarşısında cavab verməli oldular. Yəni, onu demək istəyirəm ki, hətta müharibə başa çatandan, Ermənistan kapitulyasiya aktına imza atandan təxminən 20 gün, iki həftə sonra onlar yenə də Hadruta hücum etməyə çalışdılar. Amma Azərbaycan Silahlı Qüvvələri lazımi addımları atmışdı.

Azərbaycanın inzibati-ərazi bölgüsünə görə Hadrut qəsəbəsi Xocavənd rayonunun tərkib hissəsidir və vaxtilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olan Hadrut və Martuni rayonları birləşdirilərək, - onları biz birləşdirdik, - Xocavənd rayonu yaradıldı. Onu da bildirməliyəm ki, keçmiş Martuni rayonunun da təqribən 55-60 faizi işğalçılardan azad edilib və Azərbaycan vətəndaşları o bölgələrə də qayıdacaqlar.

Hadrut qəsəbəsinə baxdıqda hər kəs bir daha görür ki, ermənilər bu torpaqları özləri üçün doğma torpaq saymırdılar. Çünki baxın, nə gündədir Hadrut. Siz Hadrutu tanıyırsınız, burada yaşamısınız, olmusunuz, yaxın kəndlərdə də yaşamışınız, burada bir neçə kəndin nümayəndələri var. Burada demək olar ki, 30 il ərzində heç nə dəyişilməyib, hərbçilər üçün iki bina tikilmişdi, bir məktəb də təmir olunmuşdu. Qalan bütün binalar necə var idi, elə də qalıb. Yəni, kütləvi səfalət hökm sürüb, bir daş daş üstünə qoyulmayıb. Görün yollar, binalar nə gündədir. Bəzi binalarda ümumiyyətlə insan necə yaşaya bilər, böyük sualdır. Sual olunur, bəs 30 il ərzində Ermənistan dövləti xarici ermənilərdən milyonlarla pul alıb. Onlar hər il marafon düzəldirdilər, hər il təqribən yüz milyon dollardan çox pul yığılırdı. Onu vurun 30 ilə, görün təxminən nə qədər pul edir. Mən indi bütün bu bölgələrə gedirəm - Hadrutda da, Hadrutun kəndlərinin bir çoxunda da, Xocalının Çanaqçı, Sığnax kəndlərində də olmuşam. Azıx olsun, Tuğ olsun, Susanlı olsun və başqa kəndlər - hamısı bərbad vəziyyətdədir. İndi bizim inşaatçılar bəzi kəndlərə gedirlər, təhlil aparırlar ki, binaların 95 faizi yararsız vəziyyətdədir. Bəs, yığılan bu milyardlar hara gedib? Deməli, Ermənistan rəhbərliyi, onun keçmiş oğru rəhbərliyi, sadəcə olaraq, dünyanın zəngin ermənilərini aldadaraq, marafonlar düzəldərək o pulları cəlb edib özləri üçün bildikləri kimi xərcləyiblər.

Onların böyük bir fondu var, adı Hayastandır. Bilməyənlər üçün deyə bilərəm ki, Hayastan, əslində, Ermənistan deməkdir. Bilmirəm nəyə görə ingilis dilində, rus dilində Hayastana Armenia deyirlər, çünki ermənilər özlərini hay adlandırırlar, öz ölkəsini Armenia yox, Hayastan adlandırırlar. Bu tarixçilərin işidir. Mən bunun səbəbini bilirəm, amma yəqin ki, gərək Azərbaycan tarixçiləri də daha dolğun tədqiqatlar aparsınlar. Yəni, bu Hayastan fondu dediyim kimi, bəlkə də bir neçə milyard pul yığmışdır. Həmçinin Amerikada yaşayan zəngin ermənilər öz xüsusi fondlarını yaradıblar, öz ailə üzvlərinə aid fondlar yaradıblar. Otuz il ərzində bəlkə də ən azı bir neçə milyard pul yığılıbdır və o pulun taleyi, necə deyərlər, məlum deyil. Çünki azad edilmiş bütün yerlərə baxdıqda, hətta erməni əhalinin yaşadığı yerlərə baxdıqda, orada heç bir inkişafın əsər-əlaməti yoxdur. Görün Şuşa nə gündədir. Onlar Şuşanı bütün dünyaya öz şəhəri kimi qələmə verməyə çalışırdılar, bu gün də çalışırlar. Əgər sənin şəhərindirsə, niyə bu gündədir?! Şuşada bir dənə də yeni bina yoxdur. İki yeni bina var. Biri separatçıların rəhbərlərinə məxsusdur, biri də xaricdə yaşayan başqa bir zəngin erməniyə. Özü də villalardır, öz şəxsi evləridir. Bir dənə də bina yoxdur. Şuşadakı 17 bulağın, 17-si də qurudulub. Yaxşı, bu, sənin şəhərindirsə, niyə bu gündədir?!

İndi burada əyləşənlərin bir neçəsi Tuğ kəndindəndir. Mən sizi Tuğ kəndinə də aparacağam, görərsiniz kəndi nə günə qoyublar. Mən orada olanda dəhşətə gəldim. Onlar Tuğda hər il müxtəlif festivallar təşkil edirdilər. Xaricdən qonaqlar cəlb olunurdu, gəlirdilər və belə bir videogörüntü yaradılırdı ki, sanki çox inkişaf etmiş yerdir. Dağılmış vəziyyətdədir, məktəb dağılıb, mədəniyyət evi dağılıb, binalar demək olar ki, hamısı köhnəlib. Yəni, bax, budur Ermənistan işğalının əsl siması.

Onlar bizim torpağımızı işğal ediblər, Azərbaycan əhalisini etnik təmizləməyə məruz qoyublar, bütün evləri, binaları, tarixi abidələri dağıdıblar və özləri üçün də bir həyat qurmayıblar. İşğalı bundan sonra 30 il də davam etdirmək istəyirdilər. Beynəlxalq ictimaiyyət də, bu məsələ ilə məşğul olanlar da demək olar ki, buna göz yumurdular. Biz buna son qoyduq. Bir il bundan əvvəl Hadrutun azad olunması bir daha demək istəyirəm ki, tarixi hadisə sayıla bilər. Çünki bundan sonra biz artıq müxtəlif istiqamətlər üzrə Zəfər yürüşümüzü davam etdirdik. Bir istiqamət Füzuli istiqaməti idi. Hadrut azad olunandan heç 10 gün keçməmiş biz Füzulini azad etdik. Digər istiqamət Şuşa istiqaməti idi. Bax, o Zəfər yolu dediyimiz tarixi yol, o cümlədən Hadrut meşələrindən keçirdi. Beləliklə, Füzuli oktyabrın 17-də götürüləndən sonra Ermənistana daha çox zərbə oldu. Çünki dir. Tarixi abidələr, körpülər, eyni zamanda, məşhur Azıx mağarası, Tağlar mağarası - bunlar burada yerləşir. Ermənilər Azıx mağarasını da erməniləşdirmək istəmişdilər. Bunların cəfəngiyyatının dərəcəsinə baxın, onlar bəyan edirdilər ki, Azıx mağarasında ermənilər yaşayıblar. Adam bilmir gülsün, yoxsa neynəsin. Azıx mağarasını aşkarlayan da azərbaycanlı arxeoloqlar olmuşlar. O arxeoloqlar böyük tədqiqat işləri aparmışdılar. Ermənilər, sadəcə olaraq, təbliğat üçün dünyanın bir neçə ölkəsindən alimlər gətirərək burada şou yaradırdılar. Demək olar ki, mağaraya böyük ziyan vurublar. Keçən dəfə mən burada olanda o mağaranın girişinə qədər qalxdım. Tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri, otellər tikmək üçün azərbaycanlı və xarici investorları da dəvət etmək istəyirəm. Çünki dünyada Xocavənd kimi, Hadrut qəsəbəsi kimi gözəl səfalı yerlər çox azdır. Ermənilər Kəlbəcərdəki, Laçındakı və digər yerlərdəki meşələrimizi qırıblar. Kəlbəcər, Laçın,



artıq Cəbrayıl, Hadrut, Füzuli, yəni böyük yaşayış məntəqələri işğaldan azad edildi və müharibənin sonrakı gedişatını hər kəs bilir.

Biz Hadrutu bərpa edəcəyik. Hadrutun baş planı, onun ilkin versiyası mənə təqdim edildi. Mənim bir çox iradlarım olub, ona görə mən bu gün o planı gətirmədim. Çünki hələ onun üzərində işləmək lazımdır. Ancaq hesab edirəm ki, yaxın 1 ay ərzində bizim memarlar, inşaatçılar yeni plan üzərində işləyəcəklər, təqdim olunacaq və biz onu təsdiq edəcəyik.

Bu gün isə artıq Hadrutun bərpası işlərinə start verildi. Avtomobil yolunun təməli qoyuldu. Dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkiləcək, "Hadrut" yarımstansiyası tikiləcək, onun təməli qoyuldu və Hadrutda məscidin tikintisinə də start verildi. Məscidin də təməlini mən qoydum və hesab edirəm ki, bu da tarixi hadisədir. Çünki sovet vaxtında Hadrut qəsəbəsində yaşayanların əksəriyyəti ermənilər idi. Onlar, əlbəttə ki, burada məscidin inşasına imkan verməzdilər və bilirik ki, bütövlükdə sovet dövründə - ateizm dövründə məscid tikmək mümkün deyildi.

Biz həm tarixi ədaləti bərpa edirik, həm bizim dini-mənəvi dəyərlərimizə sədaqət göstəririk. Eyni zamanda, artıq yarımstansiya, yol əsas infrastruktur layihələrindən biridir və digər layihələr də icra ediləcək. Hadrutun tarixi hissəsi yenidən qurulacaq. Artıq binaların təmiri ilə bağlı ilkin görüntülər var və eyni zamanda, qəsəbədə müşahidə olunan bu səliqəsizlik adamı incidir. Qəsəbəni bu gündə təsəvvür etmək mümkün deyil. Ona görə biz Hadrutu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik.

Qəsəbənin və Xocavənd rayonunun inkişafı ilə bağlı əsas istiqamət kənd təsərrüfatı olacaq - bitkiçilik, heyvandarlıq, üzümçülük. Burada üzümçülük ənənələri olubdur, üzüm üçün çox münbit şərait var. Kənd təsərrüfatı ilə bərabər, bura çox dəyərli turizm mərkəzi olacaq. Çünki Xocavənd rayonunun turizm potensialı çox genişdir. Bura təbiətcə çox zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar, cənnətə oxşayan bir yer-

Zəngilan rayonlarında 60 min hektara yaxın meşə sahəsi tamamilə məhv edilib, qırıblar, yandırıblar, Cəbrayılda da, həmçinin, amma burada yox. Ona görə burada təbiət demək olar ki, toxunulmaz qalıb. Bir də ki, burada faktiki olaraq əhali yox idi. Hadrutda bəlkə min nəfər yaşayırdı-yaşamırdı. Əhali yox idi. Ona görə bax, bu bölgənin saf təbiətini biz qorumalıyıq. Vətəndaşlar bura qayıtdıqdan sonra, ilk növbədə, bu təbiətin qorunmasına gərək özləri fikir versinlər və əlbəttə, dövlət də öz üzərinə düşən vəzifələri icra edəcək.

Bizim Xocavənd rayonunun, Hadrut qəsəbəsinin gələcək inkişafı ilə bağlı çox böyük planlarımız var. Biz bu gün bu planların icrasına start verdik. Bu gün xocavəndlilər öz doğma torpaqlarına gəliblər, bundan sonra gəlişlər daha da tez-tez həyata keçiriləcək.

Mən sizi bu tarixi gün münasibətilə bir daha təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

X X X

Görüşdə Milli Məclisin deputatı Elman Məmmədov, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Tamilla Kəngərlinskaya, Əməkdar müəllim Asif Cahangirov, Əməkdar müəllim, Salakətin tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi Gültəkin Ağayeva, Azərbaycan Tibb Universitetinin Ümumi Cərrahiyyə kafedrasının professoru Mübariz Əliyev çıxış etmişlər. Sonra xatirə şəkilləri çəkdirildi.

X X X

Prezident İlham Əliyev Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə Tug kəndində olub.

## Milli Məclis "Müstəqillik Günü haqqında" qanun layihəsini ikinci oxunuşda qəbul etdi

Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəlikdə bir məsələ - "Müstəqillik Günü haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirəsi var.

Plenar iclasda "Müstəqillik Günü haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli öncə birinci oxunuş zamanı çıxış etmiş deputat həmkarlarına təşəkkürünü çatdırıb. Parlamentə Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş bu qanun layihəsinin məzmununun, məntiqinin və zərurətinin müzakirələrdə düzgün şərh edilərək Azərbaycan cəmiyyətinə çatdırıldığını qeyd edib.

Məlumat verilib ki, sözügedən qanun layihəsinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində müzakirəsi zamanı səslənən fikirlər - qanunun preambulası ilə əlaqədar, texniki redaktə xarakterli və digər səpkili bir sıra təkliflər qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılıb və yeni variantda öz əksini tapıb. Həmin dəyişiklikləri deputatların nəzərinə çatdıran Əli Hüseynli birinci oxunuş zamanı səslənmiş bir sıra fikirlərə də münasibətini açıqlayıb.

Sonra iclasda "Müstəqillik Günü haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirəsinə başlanıb. Öncə qanun layihəsi əsas kimi qəbul olunub.

Müzakirələrdə Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, komitə sədrləri Zahid Oruc, Tahir Mirkişili, deputatlar Nizami Cəfərov, Əziz Ələkbərov, İsa Həbibbəyli, Fazil Mustafa, Musa Qasımlı, Qüdrət Həsənquliyev, Sahib Alıyev,



Hikmət Məmmədov, Erkin Qədirli qanun layihəsinə dair rəy və təkliflərini bildiriblər.

Birinci vitse-spiker, komitə sədri Əli Hüseynli çıxışlara münasibət bildirib, deputatları maraqlandıran sualları cavablandırıb. Qeyd olunub ki, ikinci oxunuş zamanı parlamentdə səslənmiş təkliflər də qanunvericilik təşəbbüsü subyektinin diqqətinə çatdırılacaq.

Müzakirələrin yekununda "Müstəqillik Günü haqqında" qanun layihəsi öncə maddə-maddə, sonra isə bütövlükdə səsə qoyulub və ikinci oxunuşda qəbul edilib.

Qanuna əsasən 28 May - Respublika Gününün adı dəyişdirilərək mayın 28-i Müstəqillik Günü, 18 Oktyabr - Dövlət Müstəqilliyi Gününün isə adı dəyişdirilərək oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilib.

Həmin günlər isə hər il bayram kimi qeyd olunacaq. Müstəqillik Günü qeyri-iş günü, Müstəqilliyin Bərpası Günü isə iş günü olan bayram sayılacaq.

## Azərbaycan Respublikasının təhsil işçilərinə "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə aşağıdakı təhsil işçilərinə **"Əməkdar müəllim"** fəxri adı verilsin:

...

**Rəhimova Şəhla Məmmədqasım qızı**...

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 oktyabr 2021-ci il

## Təbrik edirik



Salyan şəhər Ə.Kürçaylı adına 7 saylı texniki fənlər təmayüllü məktəb-liseyin coğrafiya müəllimi Şəhla Rəhimova Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu məlum sərəncamı ilə "Əməkdar müəllim" adına layiq görülüb.

Şəhla xanım BDU-nun coğrafiya fakültəsini bitirdikdən sonra 1995-ci ildən taleyini şəhər 7 saylı texniki fənlər təmayüllü məktəb-liseyinə bağlayıb. Artıq 25 ildən yuxarıdır ki, doğulduğu müəllim ailəsinin ənənələrini uğurla davam etdirən Şəhla Rəhimova öz fənnini şagirdlərə sevdirməklə yüzlərlə gəncin elm yoluna işıq salıb. Dəfələrlə Təhsil Nazirliyi, rayon rəhbərliyi, həmkarlar təşkilatı tərəfindən təltiflərə layiq görülüb. Müxtəlif mövzularda yazdığı elmi məqalələr bir çox jurnalda çap olunub. Elmi konfranslarda məqalələri müzakirəyə çıxarılıb.

Bu il isə rayonumuzun abituriyenti, Prezident təqaüdçüsü, qəbul imtahanlarında 691 bal toplayaraq respublika birincisi Əflan Bədəlovun coğrafiyadan üçqat respublika çempionu olduğuna görə, Şəhla xanıma minnətdarlığı sonsuzdur.

Daha böyük uğurlarınızla oxucularımızı sevindirək.

## 5 oktyabr-Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir

Salyan Rayon İcra Hakimiyyətində 5 oktyabr-Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilmişdir. Pandemiya qaydalarına uyğun olaraq keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov, rayon prokuroru Firdovsi Nemətli, məktəb direktorları, Vətən müharibəsində iştirak etmiş müəllimlər və qabaqcıl pedaqoqlar iştirak etmişdir. Rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov əlamətdar gün münasibətilə müəllimləri təbrik etmiş, onlara şərəfli peşə fəaliyyətlərində uğurlar arzulamış və Ümummilli lider Heydər Əliyevin müəllim peşəsinə verdiyi dəyərdən, bu şərəfli peşə sahiblərinin əməyinin cəmiyyətin tərəqqisində, gənclərin formalaşmasındakı rolundan danışmışdır. Tədbirdə çıxış edənlər əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan milli təhsil konsepsiyasından, Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan dövlət təhsil siyasətindən, bu sahədə əldə olunan uğurlardan danışmışlar. Tədbirin sonunda təhsil sahəsindəki səmərəli pedaqoji fəaliyyətlərinə görə, rayonun bir qrup təhsil işçisi qiymətli hədiyyələrlə təltif olunmuşlar.



## Vətən müharibəsi şəhidlərinin xatirəsi ehtiramla yad edilir

*Salyan rayonunda Vətən müharibəsində qəhrəmancasına həlak olmuş şəhidlərin ailələrinə və müharibə iştirakçılarına "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları təqdim olunmuşdur.*



XXX

Vətən müharibəsində igidlik göstərərək qəhrəmancasına şəhid olmuş salyanlıların il mərasimləri davam etməkdədir. Bir il əvvəl 44 günlük Zəfər salnaməsinə parlaq səhifələr yazan həmyerlililərimizə ümumxalq ehtiramı göstərilir. Onların ad günləri, şəhadətə yüksəldikləri tarixlər xalqımızın mənəvi dəyərlərinə layiq qeyd edilməkdədir.

Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Salahov Sabir Hikmət oğlunun və Quliyev Kamran Dadaş oğlunun şəhadətlərinin ildönümü ilə əlaqədar keçirilən mərasimlərdə Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Milli Məclisinin sədr müavini Adil Əliyev, Milli Məclisin deputatı Jalə Əhmədova, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Mərasimlərdə vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirələri ehtiramla anılmış, məzarları ziyarət olunmuş, önünə gül dəstələri düzülmüş, ruhlarına dualar oxunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə şəhid Sabir Salahov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", Kamran Quliyev "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişlər.

XXX

Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş mayor Balıyev Hüseynağa Salman oğlunun şəhadətinin ildönümü münasibətilə məzarı ziyarət olunmuşdur. Rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri şəhidin şəhadətinin ildönümü ilə əlaqədar təşkil edilmiş il mərasimində iştirak etmiş, məzarını ziyarət etmiş, önünə gül dəstələri düzmüş, ruhuna dualar oxumuşlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, şəhid Hüseynağa Balıyev ölümündən sonra "Vətən uğrunda" medalı və "Qarabağ" ordeni ilə təltif edilmişdir.

XXX

Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş baş leytenant Aslan Əvəz oğlu İsmayılovun şəhadətinin ildönümü münasibətilə məzarı ziyarət olunmuşdur. Rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov, hüquq-mühafizə orqanlarının rəhbərləri, kənd sakinləri və ictimaiyyət nümayəndələri şəhidin şəhadətinin ildönümü ilə əlaqədar təşkil edilmiş il mərasimində iştirak etmişlər. Şəhid Aslan İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Şəhid baş leytenant Aslan İsmayılovun "Kəlbəcərin azad olunmasına görə" medalı atasına təqdim edilmişdir.

XXX

Vətən müharibəsində şəhid olmuş gizir Əmrah Firavan oğlu Həmidovun ildönümü münasibətilə məzarı ziyarət olunmuşdur. Rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri şəhidin şəhadətinin ildönümü ilə əlaqədar təşkil edilmiş il mərasimində iştirak etmişlər. Anım mərasimi şəhidin doğulub boya-başa çatdığı ata ocağında davam etmişdir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən xidmətlərinin yüksək qiymətləndirildiyi, hər bir şəhid ailəsinin, qazinin ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunduqları diqqətə çatdırmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə şəhid Əmrah Həmidov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

XXX

Rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri şəhidin şəhadətinin ildönümü ilə əlaqədar təşkil edilmiş il mərasimində iştirak etmiş, məzarını ziyarət etmiş, önünə gül dəstələri düzmüş, ruhuna dualar oxumuşlar. Anım mərasimi şəhidin doğulub boya-başa çatdığı ata ocağında davam etdirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, şəhid Əli Tağıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

XXX

Vətən müharibəsində şəhid olmuş MAXE Ramin Emin oğlu Cavadovun ildönümü münasibətilə məzarı ziyarət olunmuşdur. Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri şəhidin şəhadətinin ildönümü ilə əlaqədar təşkil edilmiş il mərasimində iştirak etmiş, məzarını ziyarət etmiş, önünə gül dəstələri düzmüş, ruhuna dualar oxumuşlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən şəhid Ramin Cavadov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.



























## Aqrar təlim mərkəzində

Aqrar sahədə mütərəqqi texologiyaların yeni müasir iş üsullarının tədbiqi, elmi əsaslara və təcrübəyə əsaslanan innovasiyaların həyata keçirilməsi zamanın çağrışıdır.

Respublikanın qabaqcıl kənd təssərrüfatı rayonları sırasında həmişə öndə olan Salyanda da bu istiqamətdə elmi əsaslara söykənməklə fəaliyyət göstərən müəsissə və təşkilatlar vardır. Onlardan biri də son dövrə qədər Aqrar Elm və İnnovasiya Mərkəzi olan hazırda isə Salyan Aqrar Təlim Mərkəzi adlanan təşkilatdır. İdarə yeni olduğukimi rəhbəridə gəncdir.

Mərkəzin direktoru Ələkbər Məmmədov 1984-cü ildə Salyan rayonunun Seyidsadıqlı kəndində dünyaya gəlmişdir. Ali təhsilli aqronomdur. Çox gənc yaşlarından məsuliyyətli və idarəetmə bacarığı tələb edən sahələrdə işləyib. Belə ki, 23 yaşında Kənd Təsərrüfatı Nazirliyinin Salyan Dövlət Toxum Müfəttişliyində aqronom vəzifəsində sonra isə İdarə rəisi təyin olub. Əmək bioqrafiyasının növbəti illərində Respublika Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin Salyan Regional Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dovlət Xidmətində və təşkilatın daxili birləşmələr əsasında idarə Regional Labaratoriyya Ekspertiza Toxum Sertifikatlaşdırma Mərkəzi kimi fəaliyyət gösdərib və o burada direktor vəzifəsində çalışıb. 2020-ci il İyul ayından Salyan Regional Aqrar Elm İnnovasiya Mərkəzinə rəhbərlik etmişdir. 2021-ci ilin may ayından isə idarə respublikamızda aqrar sahədə aparılan islahatlar nəticəsində yeni yaradılan Aqrar Xidmətlər Agentliyinin tərkibində Salyan Aqrar Təlim Mərkəzi kimi fəaliyyətini davam etdirir.

Rayonda payız tarla işlərinin ən məsul günlərinin birində təlim mərkəzində olduq.Gənc direktotrla görüşdük. Müsahibimiz işini sevən,çətinlikdən qorxmayan, yeniliklərə can atan, ən başlıcası isə mətbuata, ictimaiyyətə açıq bir ziyalı təsiri bağışladı. Mərkəzin direktor müavini,təcrübəli təsərrüfatçı Əli Novruzov da burada idi. İlk təəsüratımız ondan ibarət oldu ki, təlim mərkəzinin binası çox gözəl təmir eilmişdir. Burada müasir səviyyədə işləmək üçün hər çür şərait yaradılmışdır. Burada olduğumuz bir saatdan çox müddətdə nəinki rayonumuzda həmçinin bölgədə aqrar sahədə həyata keçirilməkdə olan innovativ layihələrin gedişi barədə ətraflı bilgi aldıq.

Mərkəzin direktoru Ələkbər Məmmədov bildirdi ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Aqrar sahədə idarə etmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 14 yanvar tarixli 467 nömrəli Fərmanı ilə aqrar sahədə göstərilən dövlət xidmətlərinin optimallaşdırılması və səmərəliliyinin artırılması, həmin dövlət xidmətlərinin daha az həcmdə resurs sərfedilməklə həyata keçirilməsi, dövlətvəsaitinə qənaət edilməklə bu sahədə inzibatiidarəetmənin təkminlləşdirilməsi, xidmətlərin həyata keçirilməsində keyfiyyətə nəzarətin təşkili, şəffaflığın artırılması, innovativ halların tətbiqi, elektron xidmətlərə keçidin sürətləndirilməsi və vətəndaş məmnunluğunun artırılması məqsədi ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə"si təsdiq olunmuşdur.

Aqrar Xidmətlər Agentliyi ölkədə heyvan və bitki sağlamlığı, seleksiya nailiyyətləri, toxumçuluq, nəqliyyat vasitələri və digər kənd təsərrüfatı texnikası ilə bağlı dövlət xidmətlərinin təşkilini, habelə seleksiya nailiyyətləri, toxumçuluq və kənd təsərrüfatı texnikası sahələrində dövlət nəzarətini həyata keçirir. Bu mənada Salyan Aqrar Elm Mərkəzinin məqsədi qarşıya qoyulan hədəflərin-heyvan sağlamlığının təmin edilməsi, heyvandarlıqda məhsuldarlığın artırılması, bitkisağlamlığı, bitkiçilikdə məhsuldarlığın artırılması sahələrdə aqrokimyəvi xidmətlərin təşkilində, kəndtəsərrüfatı sahəsində toxumçuluğun idarəedilməsində və digər sahələrdə innovativ üsulları təbliğ etmək işinə dəstək verməkdir.



Salyan Təlim Mərkəzi 6 rayona- Salyan, Neftçala, Biləsuvar, Hacıqabul, Saatlı və Sabirabad rayonlarının torpaq mülkiyyətçilərinə xidmət göstərir.

Qəbul edilmiş tədbirlər planına əsasən, Dövlət Aqrar İnkişaf Mərkəzləri ilə birgə əməkdaşlıq edərək torpaq mülkiyyətçiləri ilə görüşlər keçirilir, arqar sahədə tətbiq olunan ən son beynəlxalq nailiyyətlər təbliğ olunur və onların tətbiqi üçün maarifləndirici seminarlar keçirilir. Təlim mərkəzimiz, eyni zamanda, daha məhsuldar və xəstəliklərə davamlı sortların çoxaldılması və nümayişi, eyni zamanda, növbəli əkinin üstünlüklərini təbliğ etməklə məşğuldur.

Aqrar Təlim Mərkəzinin əkin sahələrində buğda "Qobustan", "Tale-38", "Murov-2" və arpa "Qarabağ-22", "Cəlilabad 19", "Dəyanətli, Sadiq" sortlarının becərilməsi işlərinin əkini təbliğ olunur. 38 hektarda yetişdirdiyimiz super elit sortlar müasir bitkiçilik normalarına uyğun olmaqla Kənd Təsərrüfatı Nazirliyinin təqdim etdiyi siyahılar üzrə regionun torpaq mülkiyyətçilərinə bölgülər əsasında verilir. Pambıqçılıq sahəsində də təbliğ edilməli nümunələr vardır.Bu istiqamətdə "Gəncə" sortlarının üstünlükləri torpaq mülkiyyətçilərinə izah olunur.

Bu il sahələrimizdə 15 hektarda yüksək reproduksiyalı super elit pambıq sortları becərimişik. Hazırda yığım gedir. Bu istiqamətdə respublikamızda həyata keçirilən elmi əsaslı və innovasiyalı işlərin arxasında ölkəmizdə bolluğunun təmin edilməsi, keyfiyyətli məhsullarla süfrələrimizdə daha bol olmasına nail olmaqdır. Bu işin bir istiqaməti də yenilikləri daha inandırıcı təbliğ etmək və son, arzu olunan nəticəyə daha tez nail olmaqdır. Biz bu sahədə çalışan hər kəsə dəstək olmağa, təcrübəmizi bölüşməyə hazırıq.

*Rüstəm Məlikov,*
*Ali Media mükafatı laureatı.*

## Salyan mahlıcının ilk dəsti sifarişçilərə göndərilmişdir

Salyan rayonunun kənd təsərrüfatı ilə məşğul olan torpaq mülkiyyətçiləri pambıqçılıq sahəsində respublikamızda öncül mövqedədirlər. Hazırda məhsul tədarükünün qızğın vaxtıdır. Mütəxəssislərin fikrincə, havaların nisbətən soyuması işin ahəngini poza bilməyib. Rayonda məhsul tədarükü ilə 4 şirkət məşğul olur.

Pambıqçılıq sahəsində zəngin təcrübəsi olan "MKT Salyan" filialında rayonun 16 inzibati ərazisindən 586 torpaq mülkiyyətçisi ilə 2.835 hektar sahədə pambıq əkini barədə müqavilə bağlanılmışdır. Sahələrdə bol məhsul yetişdirilmişdir.

Pambıq əsasən texnikanın gücü ilə toplanır. Bununla bərabər, tarlalarda defolyasiya işləri də davam etdirilməkdədir. Filialın baş aqronomu Əliskəndər Əliyevlə saytımızın əməkdaşına müsahibəsində deyib ki, ötən il 2000 hektar sahədən 38.5 sentner məhsul əldə edilmişdir. Bu il əkin sahələrinin həcmi artmışdır. Bu, əlavə məsuliyyət olsa da, məhsuldarlığın sabit qalmasına və daha da artırılmasına çalışırıq. Əlavə bir ədəd pambıqyığan maşın gətirmişik. Hazırda sahələrdə 14 pambıqyığan texnika işləyir. Hər gün 150 tondan çox məhsul tədarük olunaraq proqnozlara artıqlaması ilə əməl edilir.



Filialın tədarük meydanlarında, istehsal sexlərində işlər qaydasındadır. Belə ki, pambıq dolu qoşqulu traktorlar ardı-arası kəsilmədən filialın ərazisinə daxil olur. Məhsul çəkilərək qəbul edildikdən sonra tayalara vurulur. Artıq emal sexlərində də ilk mahlıc istehsal edilməkdədir. İlk məhsul isə artıq sifarişçilərə çatdırmaq üçün hazırdır. Zavodun həyətində məhsul götürmək üçün çoxtonnajlı maşınlar növbəyə durmuşlar.

Öyrənirik ki, filialda işlər iki növbədə təşkil edilmişdir. Burada 100 nəfərdən çox insanın məşğulluğu təmin edilmişdir. Beləcə, böyük pambıqçılıq təcrübəsi olan kollektiv hər gün öz uğurlarını daha da möhkəmləndirməkdədir. Uğurlu olsun.

## Pambıq tədarükü haqqında məlumat

Məhsul istehsalı ilə məşğul olan "P-Aqro" MMC, MKT İK MMC, "Azərpambıq" MMC və "Taş obası" MMC ilə müqavilə bağlamış torpaq mülkiyyətçiləri 6.135 hektar sahədən hər gün orta hesabla 300-350 ton məhsul toplayırlar. Sahələrdə hər gün 20-dən çox pambıqyığan texnika işləyir.

Salyan DAİM-dən dünən aldığımız məlumata görə, tarlalardan bu günə kimi 8.459 ton pambıq toplanmışdır. Ümumi məhsulun 7.273 tonu maşınların qüvvəsi ilə hasilə gəlmişdir. Maşınlar gün ərzində 282 ton məhsul tədarük etmişlər.

# Hərbi cinayətlər və beynəlxalq riyakarlıq



Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək Sərkərdəlik qabiliyyəti, yenilməzliyi, qətiyyəti, siyasi iradəsi, rəşadətli Ordumuzun əsgər və zabitlərinin qəhrəmanlığı, xalqımızın öz Prezidenti ətrafında sıx birləşməsi, Ordumuza güclü dəstəyi sayəsində qazanılan Şanlı Qələbənin həm gedişində, həm də postmüharibə dövründə Azərbaycan tərəfindən beynəlxalq hüququn normalarına, müharibə qanunlarına yüksək səviyyədə əməl edilmişdir. Maksimum səviyyədə cəhd göstərilmişdir ki, mülki şəxslərə xəsarət yetirilməsin. Eyni zamanda əsirlərlə həm hərbi qanunlara əməl olunmaqla, həm də insanlıq baxımından rəftar olunmuşdur. Ancaq təəssüflər olsun ki, bunu işğalçı Ermənistan barədə demək olmaz. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2 oktyabr 2021-ci il tarixində İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində bildirmişdir ki, Müharibə zamanı saxlanmış bütün şəxslər müharibə başa çatan kimi Azərbaycan tərəfindən dərhal Ermənistana qaytarılıb. Müharibənin başa çatmasından və Ermənistanın kapitulyasiya aktını imzalamasından iki həftə sonra Azərbaycana göndərilən adamlar azad etdiyimiz ərazilərdə dekabrın əvvəlində saxlanılıblar. Onlar hərbçilərimizə hücum edib və dörd nəfəri qətlə yetiriblər. Yəni, bunlar müharibə əsirləri deyil, onlar azərbaycanlı mülki əhaliyə və hərbçilərə hücum etmək məqsədilə göndərilmiş terrorçu diversiya qrupunun üzvləridir.

Ermənilər 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları üçtərəfli Bəyanatda nəzərdə tutulmuş müddəaya əsasən Kəlbəcəri tərk edərkən əlavə vaxt istədikdə Azərbaycan buna etiraz etmədi. Ancaq Ermənistan qeyri- humanist addım ataraq işğal etdikləri ərazilərə çoxsaylı mina basdırmışlar ki, azərbaycanlılar öz doğma ocaqlarına qayıda bilməsinlər. Hətta Azərbaycan tərəfindən göstərilən insani münasibətin ziddinə olaraq verilən vaxtdan istifadə edib Kəlbəcərə basdırılan minaların sayını artırmağa çalışmışlar. İşğalçı dövlət dəqiq xəritələri bütün dünyanın gözü qarşısında Azərbaycana vermək istəmir. Əlbəttə, bu, ermənilərin nə qədər qəddar, qaniçən, işgəncə, əzab verməkdən zövq alan bir millət olduğunu əyani şəkildə təsdiq edir. Bu baxımdan ölkə başçımızın sözügedən informasiya agentliyinə verdiyi müsahibədə dediyi sözlərə diqqət yetirək:"Azad olunmuş ərazilərdə yüz minlərlə mina basdırılıb. İlkin olaraq, minalanmış ərazilərin xəritələri tərəfimizdən tələb edildikdə, Ermənistan hökuməti ən yüksək səviyyədə bəyan edirdi ki, onlarda belə xəritələr yoxdur. Müharibə bitdiyi bir ilə yaxın dövrdə Ermənistanın xəritələri bizə verməməsi nəticəsində mülki vətəndaş və hərbçilərimiz arasında 150 nəfər həlak olmuş və ya ağır yaralanmışdır. Təqdim olunmuş bəzi xəritələrin dəqiqliyi yalnız 25 faizdir".

Bu, bir danılmaz həqiqətdir ki, dünyada mövcud olan ikili standartlar, yəni bir ölkəyə bir cür, digərinə başqa cür münasibət göstərilməsi üzündən müxtəlif dövrlərdə Azərbaycan həmişə haqsızlıqlarla, ədalətsizliklərlə, çətinliklərlə üzləşib. Təəssüflər olsun ki, postmüharibə dövründə də ölkəmiz belə standartlardan xali deyil. Avropa İttifaqının iqtisadi yardım ayrılması məsələsində nümayiş etdirdiyi mövqe ikili yanaşmanın növbəti nümunəsidir. Möhtərəm Prezidentimiz İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə verdiyi müsahibədə dediyi kimi, Avropa İttifaqı ilə iqtisadi yardım məsələsi ətrafında müzakirələr aparılır. Avropa İttifaqı Ermənistan üçün 2,6 milyard avro həcmində iqtisadi yardım paketinin hazırlanması prosesindədir. Gözləntimiz ondan ibarətdir ki, həmin həcmdə məbləğ eyni şərtlərlə Azərbaycana da təklif edilsin. İstər qrant, istərsə də kredit-burada bərabərlik olmalıdır. Çünki işğaldan əziyyət çəkmiş olan ölkə bizik. Bizim 10 min kvadratkilometr sahəyə malik olan, tamamilə dağıdılmış ərazimiz, yüzlərlə şəhər və kəndlərimiz var.

Vətən müharibəsi başlamamışdan öncə Ermənistan öz imkanlarını həddindən artıq yüksək dəyərləndirirdi. Özü üçün çoxlu miflər uydurmuşdu. Hətta yeni ərazilər işğal etmək niyyətində idilər. Erməni faşistlərinin uydurduqları "Cəsur erməni əsgəri", "Məğlubedilməz Ermənistan Ordusu", "Keçilməz Ohanyan səddi" kimi miflər Azərbaycan Ordusunun "Dəmir yumruğ"u ilə darmadağın edildi. 44 gün ərzində qazanılan tarixi Zəfərlə Azərbaycan xalqı öz adını dünya hərb tarixinə qızıl xətlərlə yazdırdı. Ona görə də bur daha "Dəmir yumruğ"u başları üzərində görmək istəmirlərsə, yaxşı olar ki, Azərbaycanın gücünü, qüdrətini, hərtərəfli potensialını düzgün qiymətləndirsinlər, tələb olunan şərtlərə vaxtında və düzgün şəkildə əməl etsinlər. Bu baxımdan Ölkə Prezidenti İlham Əliyevin EFE informasiya agentliyinə verdiyi müsahibədə dedikləri ibrətamiz və dərin məna tutumu olan ifadələrdir:"Ölkəmizin potensialı müqayisə olunmazdır. Ola bilsin, erməni hökuməti Azərbaycan qarşısında şanssız olduğunu, əraziləri dinc yolla boşaltmadığı təqdirdə ciddi çətinliklərlə üzləşəcəyini real şəkildə qiymətləndirə bilmədi. Bunun nəticəsidir ki, Ermənistan məğlubiyyət kimi faciə ilə üzləşib".

*Əzizağa Məmmədli.*

# Prezident təqaüdçüsünü təbrik edirik

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2021-ci il tarixli sərəncamı ilə ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərərək Prezident təqaüdünə layiq görülən şagirdlər arasında həmyerlimiz Əflan Aslan oğlu Bədəlovun da adının olmağı hər birimizi ürəkdən sevindirdi. 691 bal toplayaraq qazandığı bu uğur təkcə təhsil aldığı məktəbin deyil, ümumilikdə rayon təhsil sisteminin uğurudur. Gecə-gündüz yorulmadan çalışmaqla, müəllimlərinin tapşırıqlarına böyük məsuliyyətlə yanaşmaqla, məqsədə doğru inamla, səbirlə, təmkinlə gedənlər arzularını gerçəkləşdirməyə müvəffəq olurlar. Bütün bunlar öz bəhrəsini verdi və Əflan respublikamızın sayılıb-seçilən şagirdlərindən biri oldu. İnanırıq ki, o, ali məktəbdə təhsil alarkən də seçdiyi peşənin mükəmməl bilicisi olmaq üçün səylə çalışacaq, ona olan ümidləri layiqincə doğruldacaqdır.

Əflan Bədəlovu çoxsaylı oxucularımız adından təbrik edir, ona daha böyük uğurlar arzulayırıq.

# Virusa qalib gələcəyimizə ümidlərimiz artır

Sentyabr ayının sonlarında təhsil ocaqlarında ənənəvi dərslərin başlanmasından sonra digər sahələrdə də yumşaldılmalar həyata keçirildi. Belə ki, respublikamızda vaksinasiyadan keçən vətəndaşlarımızın sayının artması və bununla paralel olaraq yoluxanların sayının getdikcə azalması nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində bir sıra qərarlar qəbul olundu.

Operativ Qərargahın qərarına əsasən, 2021-ci il oktyabrın 1-dən etibarən həftəsonu ictimai nəqliyyatda sərnişindaşıma fəaliyyətinin dayandırılması ilə bağlı məhdudiyyət ləğv edildi. Eyni zamanda, həmin gündən bir neçə iş və xidmət sahələrinin də fəaliyyəti bərpa edildi. İstirahət və əyləncə məkanlarının (klublar daxil olmaqla), həmçinin uşaq əyləncə məkanlarının, ümumi tutumunun 50 faizindən çox olmamaq şərti ilə mədəniyyət obyektlərinin (konsert zalları daxil olmaqla), eləcə də konfrans zallarının, teatrların, iri ticarət mərkəzlərinin nəzdindəki uşaq və digər əyləncə mərkəzlərinin, o cümlədən ümumi tutumunun 50 faizindən çox olmamaqla, kinoteatrların fəaliyyətinə start verildi.

Xüsusi karantin rejiminin yumşaldılmasına baxmayaraq, nəzərdən qaçırmamalıyıq ki, koronavirus hələ bizdən əl çəkməyib. Ona görə də qaydalara ciddi surətdə əməl etməli, özümüzün, yaxınlarımızın, ətrafımızdakıların sağlamlığını düşünməli, ehtiyatımızı bir an belə əldən verməməliyik. Koronavirusa qarşı mübarizə üsulları isə hər birimizə çox yaxşı məlumdur. Maskadan düzgün istifadə olunması, məsafənin lazımi səviyyədə gözlənilməsi, sanitariya-gigiyena qaydalarına riayət olunması çox vacibdir.

Qətiyyən yaddan çıxarmamalıyıq ki, adətən, soyuq aylarda ənənəvi olaraq qrip və digər kəskin virus respirator xəstəliklərinə yoluxma artır. Bu da nəticə etibarilə orqanizmin immunitetinin zəifləməsinə səbəb olur. Aparılan dərin elmi tədqiqatlar, araşdırmalar nəticəsində tanınmış, nüfuzlu tibb mütəxəssisləri belə qənaətə gəlmişlər ki, bu payız COVİD-19-a yoluxanlarda simptomlar pandemiyanın əvvəlki dalğaları zamanı müşahidə ediləndən fərqlidir. Müəyyən olunmuşdur ki, koronavirusun



simptomları adi qripdən fərqlənmir. Temperatur qripdə olduğu kimi yüksəlsə də, uzun müddət davam edir. Əlbəttə, insanların bu qorxulu xəstəliyə düçar olunanlarda hansı əlamətlərin baş qaldırmasını bilmələri çox vacibdir. Belə ki, virusa yoluxanlarda burun axması, əzələ və boğaz ağrısı müşahidə olunur. Eyni zamanda şiddətli temperaturla da qarşılaşmaq mümkündür. Xəstələrdə baş gicəllənmə, baş ağrıları, sürətlə zəifləmə, hətta ayağa qalxmaq istəyərkən ürəkgetmə halları baş verir. Adətən bu simptomlar xəstəliyin ikinci günündən başlayır və həftələrlə davam edir. Xəstələrdə həmçinin həzm pozğunluqları, qarın ağrısı, ishal, ürəkbulanma və qusma halları da ola bilər.

Karantin qaydalarının yumşaldılmasına baxmayaraq, rayonumuzda koronavirusa qarşı mübarizə tədbirləri ardıcıl şəkildə, yüksək səviyyədə davam etdirilir. Rayon rəhbərliyi tərəfindən bu məsələnin daim diqqət mərkəzində saxlanılmasının nəticəsidir ki, sanitar-epidemioloji vəziyyət tamamilə nəzarət altındadır. Müntəzəm olaraq dezinfeksiya işlərinin həyata keçirilməsi, qapalı məkanlarda Operativ Qərargahın qaydalarına riayət olunmasını müəyyənləşdirmək məqsədilə mütəmadi reydlərin keçirilməsi, bu zaman maarifləndirici söhbətlərin aparılması öz uğurlu nəticəsini verir. Vaksinasiya prosesinə fəal qoşulan sakinlər karantin qaydalarına da ciddi surətdə əməl edirlər. Bununla da onlar öz vətəndaşlıq borclarını ləyaqətlə, tələb olunan səviyyədə yerinə yetirməyə çalışırlar. Bütün bunlar isə nə zamandır ki, bizimlə amansız döyüşə girmiş virusa qalib gələcəyimizə ümidləri artırır.



# *Vətən sənə oğul dedi*



## Salyanın ilk şəhidi və ya 40 gündən sonra yetişən məktublar

Şəhadətə yüksələn oğlunun qırxıncı günündən sonra qəfil qonaq kimi evə yetişdi o məktublar. O vaxtacan nə ata-anasının, nə də yaxınlarının o məktublardan xəbərləri yox idi. Elmir isə hərbi xidməti dövründə arabir boş vaxt tapan kimi ürəyindən keçənləri ağ vərəqlərə köçürmüşdü. Onda cəbhə bölgələrində düşmən tərəfindən atəşkəs pozulsa da, hələ müharibənin ölümsaçan barıt qoxusu gəlmirdi. Amma Elmir içdən yazmışdı. O, məktubları evə göndərməyə də tələsməmişdi. Nə vaxtsa göndərəcəkdi. Müharibə başlamasaydı...

-Məktubu döyüşə getməmişdən qabaq yazıb. Sonra qalıb cibində. Əsgər yoldaşları çatdırıblar bizə. Oğlumun şəhadətə yüksəlməsindən 40 gün sonra atası Arzu kişinin xatırlatması.

Saç-saqqalı ağarmış Arzu kişi daha evdə duruş gətirə bilmirdi. Ora-bura vurnuxurdu. Oğlunun məktublarını dəfələrlə oxumuşdu, hətta əzbərləmişdi də. Hara gedirdisə, nə iş görürdüsə, hər zaman Elmirin yazdıqları onunla birgə olurdu.

Elmirin məktubundan: "6 iyul, 2020. Hərbidə ilk olduğum gün. Hələ ki, ev üçün darıxmamışam. Amma Gəncəyə yola düşdüyüm gün anamın arxamca baxıb ağladığını gördüm. Anam kimi mərd qadın ağlayırdı. Onun heç vaxt ağladığını görməmişdim. Hələ evə bir az gec zəng edəndə kövrəldiyini demirəm"...

3 iyun 1999-cu il. Elmir Məmmədli bu tarixdə qədim Türk tayfası Şahsevənlərin yurd saldığı Xocalı kəndində doğulmuşdu. O kənd ki, Salyan-Neftçala avtomobil yolundan iki kilometr aralıda yerləşirdi. Böyüyürdü. Böyüdükcə, o, torpağın qədir-qiymətini anlayırdı. Bilirdi ki, bəni-insan bir gün də olsun torpaqsız, yurdsuz-yuvasız, isti ocaqsız yaşaya bilməz.

Elmirin məktubundan: "Artıq 52 gündür ki, hərbidəyəm. Keçirdiyim hər günə görə şükür edirəm. Olduğum bu günə kimi çox çətinliklərdən keçmişəm. Amma valideynlərim bizə bu çətinliyi başa düşməyə imkan verməyiblər. Hər çətinlik və hər yaxşı günümə görə, Allaha şükür edirəm.

Gəncəyə gəldiyim ilk gündən sıra məşqləri başladı. Hər gün saat 8:00-dan 11:30-a qədər məşq edirdik. Hər kəs bu məşqlərə çox həvəslə yanaşırdı. Çünki 9 avqustda təntənəli andiçmə günü idi. Hər kəs valideyni qarşısında qürurla bu keçidi edəcəkdi. Amma olmadı. Ölkədəki karantin vəziyyətinə görə, valideynsiz bir gün oldu. Buna da şükür. Ən azından valideynlərim əziyyət çəkib o uzunluğunda yolu gəlmədilər. Həyatda ən böyük istəyim valideynlərimə əziyyət verməmək və onların könlünü daim şad etməkdir"...

Doğma Xocalı kəndində ibtidai məktəbdə 4-cü sinfi bitirdikdən sonra seçim qarşısında qaldı. Təhsilini qonşu Ərəbqardaşbəyli kəndində, yoxsa şəhər məktəblərinin birində davam etdirsin. Aşıq Pənah adına Salyan şəhər 1 saylı humanitar təmayüllü tam orta məktəbdə oxudu. "Yaxşı", "əla"qiymətlərlə də başa vurdu o təhsil ocağını. Ali təhsil də aldı. Özü də Azərbaycan Neft və Sənaye Universitetində. Elektrik mühəndisliyi ixtisasına yiyələndi. Bitib-tükənməyən arzularının izinə, cığırına düşdü. Ən böyük arzusu doğulduğu bu torpağı, Vətəni yağı düşmənlərdən qorumaq idi.

Elmirin məktubundan: "14 avqust. Gəncədən Qazağın Dəmirçilər kəndinə gəldik. Görünüşü çox qəşəngdi. Düşdüyümüz mühit də mehriban. Çalışıram ki, burada bütün texnikaların sirrlərini dəqiqliklə öyrənim. Döyüşə tam hazırlıqlı olum. Həmişə çalışmışam və çalışacam ki, nizam-intizamlı əsgər olum"...

2020-ci il, iyul ayı. Ali təhsil alan Elmir Məmmədli bu tarixdə həqiqi hərbi xidmətə yola düşmüşdü. Və o zaman valideynlərinə bərk-bərk tapşırmışdı ki, mən əsgər gedəndə ağlamayın. Ana ürəyi buna dözərdimi?..

Elmirin məktubundan: "Hələ hərbiyə gəlməmişdən neçə illər əvvəldən düşünürdüm ki, şəhid olacam. İnşallah qismət olar. Amma Allahın yazdığı əcəldi, bilmək olmaz. Amma şəhid olsam, bilmirəm ki, ata-anam bu yükü qaldıra biləcək, ya yox. Ölümdən heç vaxt qorxmamışam, sadəcə ailəm gözümün qarşısına gəlir. Şəhid olsam, Allahdan istəyim o olacaq ki, mənə imkan versin ki, sevdiklərimi kənardan izləyə bilim. Əsas da anamın ürəyinə sərinlik gətirməkdən ötrü. Məncə şəhid olsam, anam bu yükü qaldırmağa tab gətirə bilər, çünki Allah heç kimə qaldıra bilməyəcəyi yükü verməz,-deyirlər. Hər gecə yatanda şəhidlik xəyalı qururam. Yer üzündə olan bütün insanlar üçün və ailəm üçün dua edirəm".

Əlləri arxasında aramla yeriyən Arzu kişi bir də onda gördü ki, oğlunun əbədi uyuduğu kənd qəbiristanlığına yaxınlaşıb.

Elmirin məktubundan: "Əgər şəhid olmayıb, sağ qalsam, hər gün dua edirəm ki, Allah yol açsın, maddi imkanım yaxşı olsun. Çünki xeyriyyə fondu yaratmaq istəyirəm. Kiçik də olsa, körpələrə, əlacsız insanlara bacardığım qədər yardım etmək fikrindəyəm. İnşallah, iki istəyimdən biri qismət olar. Yenə də xeyirlisi. Allah bilən məsləhətdi. Bu cümlələri şəhid olsam hamı, sağ qalsam, bəzi adamlar oxuyacaq. Və bu vərəqi həmişə ürəyimin üstündə gəzdirəcəm. Ola bilər ki, yenə də davam edim yazıya. İnşallah, görüşənədək."

Arzu kişi qara mərmərdən hazırlanmış oğlunun baş daşı ilə, oğlu ilə üz-üzə, göz-gözə gəldi. Oğlu gülümsəyirdi. O soyuq, buz kimi qara mərmərdən boylanan oğlu xoşbəxt görünürdü. Arzu kişi başdaşına yaxınlaşıb mərmər üzərində gülümsəyən oğlunun üzündən öpdü. Elə sandı ki, oğlu üşüyür. Qucaqladı, bağrına basdı o baş daşını...

Ailədə iki qardaşdan biri idi Elmir. O biri qardaşı Xanlar idi. Azərbaycan Dövlət İncəsənət Universitetində oxuyurdu. Elə kənddə sayılıb-seçilən kişilərdən biri olan babası Xanhüseynin (Xanlar çağırılırdı) adını daşıyırdı. Nəvə Xanlar qardaşı Elmirlə çox mehriban, səmimi idi. Bir-birinə arxa-dayaq idilər. Sirləri də bir idi, istəkləri də. Vətən müharibəsi başlanmamışdan yeddi gün əvvəl Xanlar sonuncu dəfə qardaşı Elmirlə telefonla sentyabrın 20-də danışmışdı. O zaman artilleriyaçı bölüyündə olan qardaşı Murovdağ silsiləsində Vətən keşiyində dayanmışdı.

Vətən müharibəsi başlayana kimi, bir daha Elmirlə əlaqə saxlamaq mümkün olmur. Sentyabrın 27-də müharibənin ilk günündə bütün cəbhə boyu şiddətli döyüşlər gedirdi. Murovdağ silsiləsində yüksəklikləri azad etmək üçün Elmirin olduğu artilleriya hissəsi hədəfləri dəqiqliklə vurur, düşmənin külünü göyə sovu-



rurdu. Döyüşün qızğın çağında düşmənin topdan atdığı mərmi Elmirgilin yaxınlığında partlayır, qəlpələrdən biri Elmirin alın nahiyəsini tutur, ağır yaralanır. Onun həyatını xilas etmək üçün dağdan aşağı endirərkən artıq gec olur. Böyük arzularla, amallarla yaşayan Elmir Məmmədli 21 yaşında ikən müharibənin ilk günündə ən ali məqama-şəhidlik zirvəsinə ucalır.

O günü heç unuda bilmir Arzu kişi...Böyük bir izdiham, dalğalanan bayraqlar. Üçrəngli bayrağa bükülmüş Elmirin nəşi əllər üzərində gətirildi kənd qəbiristanlığına. Şəhid sürəkli alqışlarla əbədiyyətə yola salınırdı.

Nərgiz ana oğlunun şəhid oduğunu eşidəndə fəryad qopartdı, sonuncu dəfə oğluna layla çaldı. Elə bir layla ki,...ürək dağladı o layla...

Əmisi qızı Vəfa Əbilova isə Elmir haqqında qürurla söyləyəcəkdi.

Elmirin qalan yarımçıq arzularını həyata keçirməyi qardaşı Xanlar öz üzərinə götürüb:

-Qardaşımın ən böyük arzusu yardım fondu yaratmaq idi. İnanıram ki, gələcəkdə mən onun arzusunu yerinə yetirəcəm. Qardaşımın yarım qalan işlərini davam etdirəcəm.

Elmir Məmmədlinin çox qısa, lakin şərəfli həyatı dəyərləndirilib. Ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

...Gözləri qızarmış Arzu kişi qəbiristanlığın yaxınlığından keçən kəndarası asfalt yola çıxdı.

Oğlunun illərlə gəlib-getdiyi o yollara bir də, bir də həsrət dolu baxışlarla baxdı. Dərindən köks ötürdü...

*Təyyar Nəsirli.*

# *"Şəhid olmaq onun ən böyük arzusu idi"*



27 sentyabr 2020-ci il tarixində başlanan II Qarabağ müharibəsində vətənpərvər həmyerlimiz Sultan Mikayıl oğlu İbrahimovun şəhid olmasından artıq bir il keçir. Bu münasibətlə yenidən şəhidin ailəsində olduq. Oxucularımıza əziz şəhidimizin tərcümeyi-halı barədə qısaca məlumat verək. Sultan 1996-cı il aprelin 24-də Salyan şəhərində anadan olub. 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseyi bitirdikdən sonra 2013-cü ildə "Gömrük işi" ixtisası üzrə Bakı Kooperasiya Kollecinə daxil olmuş, 2016-cı ildə təhsilini başa vurmuşdur. Həmin ilin iyulunda hərbi xidmətə çağırılan gənc 2017-ci ildə ordudan tərxis olunmuşdur. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Qismən səfərbərlik haqqında" sərəncamına əsasən 2020-ci il sentyabrın 28-də Xüsusi Təyinatlı Dəstənin tərkibində ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərə qatılıb. Oktyabrın 24-də ən ali məqama-şəhidlik mərtəbəsinə ucalıb. Ölümündən sonra ölkə Prezidentinin müvafiq sərəncamları ilə Sultan İbrahimov "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə " və "Zəngilanın azad olunmasına görə "medalları ilə təltif edilib. Əziz şəhidimizin xatirəsinə böyük hörmət və ehtiramın əlaməti olaraq rayonun Babazanlı qəsəbəsində yerləşən küçələrdən birinə, həmçinin Bakı şəhərində yerləşən məktəbin, rayon 1,2,4 saylı və internat məktəbin siniflərindən birinə onun adı verilmişdir.

Oğlunun şəhidliyindən ömrü boyu qürur hissi keçirəcəyini qeyd edən Mikayıl kişi bildirdi ki, Sultan dinimizə, adət-ənənələrimizə bağlı, namaz qılan, ağzı dualı, dilindən Allah, peyğəmbər, imam kəlmələri düşməyən bir gənc idi. Döyüşlərə gedərkən həddindən artıq nikbin olduğuna, "İnşallah" qalib gələcəyik, "Qalibiyyət mütləq bizimlə olacaq", "Ola bilməz ki, biz zəfər çalmayaq" sözlərini işlətdiyinə görə, silahdaşları ona "Vətənin qələbə rəmzi" adını vermişdilər. Onun döyüşçü yoldaşlarından biri, Xalq artisti Əlibaba Məmmədovun məşhur "Vətən yaxşıdır" mahnısını yeni ruhda, şövqlə ifa edən Xudayar Yusifzadə idi. Sultanın igidliyindən, qəhrəmanlığından ağızdolusu, böyük həvəslə danışan komandiri deyir ki, 3-4 gün idi ki, əsgərlər susuz qalmışdılar. Çay isə ermənilərin zirvəsində dayandıqları yüksəkliyin ətəyindən keçirdi. Bunu bilən kimi, Sultan heç bir tərəddüd etmədən, labüd təhlükədən çəkinmədən, qorxu-hürkü bilmədən həmin çaydan su gətirmişdi. Sultan bildirib ki, mən erməniləri açıq-aşkar görürdüm, ancaq Allah onların gözünü elə bağladı ki, məni görmədilər.

Şəhidin anası İlahə xanım da qürur və fəxarət hissi ilə danışırdı:

-Sultan mənim həm kədərim, həm də sevincimdir. Fəxr edirəm ki, mən elə bir oğulun anasıyam. Sultan canlı şəhid idi. Şəhid olmaq onun ən böyük arzusu idi. Arzusuna da çatdı. Əgər onun şəhid olmasını Allah da istəyib, mən nəçiyəm ki, Böyük Yaradana zidd gedim. Balam tez-tez yuxuma girir. Deyir ki, ana heç darıxmayın, mənim yerim çox rahatdır. Əgər siz özünüzü incitsəniz, mən də narahat olaram. Elə bir məqamdayam ki, bu məqama yetişməyin həsrətini hər kəs çəkə bilər. Deməli, Allahın sevimli bəndəsiyəm ki, məni öz dərgahına qaldırıb.

Sultanın aprelin 24-də anadan olması, oktyabrın 24-də və 24 yaşında dünyasını dəyişməsi diqqətimi çəkdi. Onun taleyindəki "24" rəqəminin təsadüf, yoxsa zərurət olduğu barədə bir söz deyə bilmərəm, ancaq tam əminəm ki, neçə-neçə 24 illər keçəcək, igid, mərd həmyerlimiz isə heç vaxt unudulmayacaq, daim xatırlanacaqdır.

Qəzetimizin əvvəlki saylarından birində çap edilmiş şəhidin dilindən yazdığım şeir İlhamə xanımın ürəyincə olduğundan, o, bu şeirin Sultan haqqındakı yazının sonunda verilməsini xahiş etmişdi. Əlbəttə, şəhid anasının bu istəyini böyük həvəslə yerinə yetirməyi özümüzə şərəf bilirik.

Mən ki, uca tutdum Vətən daşını,
Ötüş sən vüqarla, dik tut başını,
Ölənlərə saxla o göz yaşını,
Mən şəhid olmuşam, şəhid, ay ana.

Qoyma o qəm-kədər qəddini əysin,
İncitmə özünü, ruhum göynəsin,
Axıtdım qanımı, arzum göyərsin,
Mən şəhid olmuşam, şəhid, ay ana.

Üstümə çəkdim ki, ana torpağı,
Baxıb zəlil olsun o namərd yağı,
Qucub başdaşımı, söyləmə ağı,
Mən şəhid olmuşam, şəhid, ay ana.

Yox olmaz Vətəndən əqrəb, yarasa,
Bir qaşıq qanından oğullar qorxsa,
Vətən Vətən olmaz, şəhidi yoxsa,
Mən şəhid olmuşam, şəhid, ay ana.

*Allah bütün şəhidlərimizə rəhmət eləsin.*

## Mən şəhid olmuşam...

*Vətən müharibəsi şəhidi Vidadi Əhmədovun xatirəsinə həsr olunmuş poema*

(Əvvəli ötən sayımızda)

Qızınıb istimə, qızıb oduma,
Məkrli, bəd qonşu düşüb adıma,
Adamı qurbanlıq kəsən adama
Dilim necə gəlsin adam söyləyim,
Adam deyil, oğlum, yox, adam deyil.

Qəti qərarını verdi Vidadi,
Özünə kişi tək söz verdi o gün:
-İntiqam almaqçün qəddar düşməndən
Mükəmməl hərbçi olmalıyam mən.

Uşaqlıq çağları qaldı arxada,
Aylardan, illərdən keçdi Vidadi.
Peşə seçimində heç düşünmədən
Hərbçi peşəsini seçdi Vidadi.

Canında kök salmış, qanına hopmuş
Vətən eşqi ilə alışırdı o,
Bələd olmaq üçün hərbin sirrinə
Gecə də, gündüz də çalışırdı o.

Dörd il ötüb keçdi sanki quş kimi,
Yay payıza döndü, payız sərt qışa.
Leytenant rütbəli bir zabit kimi
Təhsili uğurla o vurdu başa.

Doğma millətinə bağlı Vidadi
Anamız torpaqdan qüvvət, güc aldı,
Vətənə layiqli xidməti ilə
Mayor rütbəsinə qədər ucaldı.

(Ardı gələn sayımızda)

*Əzizağa Məmmədli.*

## 21 oktyabr - Xəlil Rza Ulutürkün doğum günüdür

# "Heç ölüm məni belə öz yolumdan döndərə bilməz"



Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi, "İstiqlal" ordenli Xəlil Rza Ulutürk 1932-ci il oktyabrın 21-də Salyan rayonunun Pirəbbə kəndində anadan olub. 1949-cu ildə Salyan şəhər 2 saylı orta məktəbi bitirib. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinin Jurnalistika şöbəsini bitirən Xəlil Rza sonralar onun biliyinin təkmilləşdirilməsi və dünyagörüşünün formalaşmasında önəmli rol oynayan Moskvada Dünya Ədəbiyyatı İnstitutunda təhsil alıb.

Öz yaradıcılığında müxtəlif janrlara müraciət etsə də, qüdrətli şairin poeziyasının ana xəttini Vətənə, torpağa həsr olunmuş, azadlığı tərənnüm edən şeirlər təşkil edir. O, bütün varlığı ilə xalqına, Vətəninə bağlı idi:

Bağrımdadır Azərbaycan,
Azərbaycan demə hanı.

Vətənə, torpağa sevgi, məhəbbət hissləri möhtəşəm poeziyasına hopmuş şair Azərbaycana layiq olmamaqdan bərk qorxur:

Nə küləkdən çəkinirəm,
Nə kələkdən, nə fələkdən,
Azərbaycan çörəyinin
Dad-duzuna
Layiq ola bilməməkdən-
Bircə bundan qorxuram mən.

Ömrü mübarizələrdə keçən şairi bu yoldan döndərə biləcək qüvvəni təsəvvür etmək mümkünsüzdür:

Gedin, xəbər verin, siz hər qafilə,
Nə söylər köksümü yandıran nəfəs:
Nə mərəz, nə qərəz...
Heç ölüm belə məni öz yolumdan saxlaya bilməz.

Şairin Lefortovo zindanında olanda belə, yazdığı şeirlərdə onun əyilməzliyini, dönməzliyini, heç vaxt bədbinliyə qapılmadığını görürük. Böyük şair onun görüşünə gəlmiş ömür-gün yoldaşı Firəngiz xanıma da iradəli olmağı, sınmamağı, göz yaşı tökməməyi tövsiyə edir:

Mən səni ömrüm boyu təbəssümlü görmüşəm,
Gülümsər gözlərindən sevinc, fərəh dərmişəm,
Sənin səadətinə həyatımı vermişəm,
Bəs nədir bu hıçqırıq, göz yaşın almaz-almaz,
Canavarlar önündə, gülüm, ağlamaq olmaz.

Xəlil Rza Ulutürk qəzəl janrında da dəyərli poeziya nümunələri yaratmağa müvəffəq olmuşdur:

Bircə telinə gözümün nuru da qurban,
Eşqim, fərəhim, ah ilə, naləm kimi gəldin.
Dünya bağı qarlı, mən üzülmüş qoca bağban,
Ruhunda qərənfil mənə həmdəm kimi gəldin.
Qüdrət də, məhəbbət də, mətanət də özünsən,
Yığdın dağınıq gülləri, bir cəm kimi gəldin.

Ümummilli Liderimiz Heydər Əliyev Xəlil Rza yaradıcılığını və onun milli azadlıq hərəkatındakı rolunu yüksək dəyərləndirmişdir. Xəlil Rza Ulutürkün Azərbaycanın ilk "İstiqlal" ordeninə layiq görülməsi məhz bu diqqət və qayğının bariz nümunəsidir.

Xəlil Rza Ulutürk özünün elmi əsərləri, monoqrafiyaları ilə Azərbaycan ədəbiyyatşünaslığının inkişafına böyük töhfələr vermişdir. O, bədii tərcümə sahəsində də qələmini uğurla sınamış, dəyərli nəticələrə nail olmuşdur. Şair türk, özbək, qazax, yunan, macar, bolqar, çex, alman, fransız və digər bir çox xalqların poeziyasından önəmli tərcümələr etmişdir. Anadan olmasının 880 illiyi Azərbaycanda və onun hüdudlarından uzaqlarda böyük təntənələrlə qeyd olunan dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Sirlər xəzinəsi", "Yeddi gözəl", və "İsgəndərnamə" poemalarının yüksək səviyyədə tərcüməsi onun böyük istedadının, eyni zamanda zəhmətsevərliyinin nümunəsidir.

Dövlətimiz tərəfindən Xəlil Rza irsinə həmişə böyük hörmət və ehtiramla yanaşılmışdır. O, 1986-cı ildə Əməkdar İncəsənət xadimi, 1992-ci ildə isə Xalq şairi adına layiq görülmüşdür. Böyük sənətkar 1994-cü il iyunun 22-də dünyasını dəyişəndən sonra Birinci Fəxri Xiyabanda dəfn olunmuş, anadan olduğu Salyanın ən geniş və yaraşıqlı küçələrindən biri adını daşımaqla yanaşı, Xəlil Rza və onun oğlu-Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəylinin adı verilmiş küçələrin qovuşağında "Ata-oğul" kompleksi yaradılmışdır.

Xəlil Rza Ulutürkün özündən sonra qoyduğu zəngin ədəbi irs onun əbədiyaşarlığını təmin edəcək, hər gələn nəsil Azərbaycan poeziyasının bu görkəmli nümayəndəsini daim minnətdarlıq hissi ilə yad edəcəkdir.

*Əzizağa Məmmədli.*

# Payız-qış mövsümündə yanğın təhlükəsizliyi qaydalarına diqqət artırılmalıdır

Yanğınların statistikası göstərir ki, payız-qış mövsümündə havaların soyuması, insanların istilik sisteminə tələbatlarının yaranması və bu məqsədlə elektrik və qaz təsərrüfatından daha çox istifadə etməsi nəticəsində yanğınların sayı yaz-yay dövrü ilə müqayisədə artır. Dünyanın hər yerində olduğu kimi respublikamızda da payız-qış mövsümündə bu artım qeydə alınır və yanğınların çox hissəsi yaşayış sektorunun payına düşür. Çox təəssüf ki, bu hadisələrin qarşısını hələ tamamilə almaq mümkün deyil. Ancaq yanğınların sayını minimuma endirmək, hadisə zamanı insan itkisinin qarşısını almaq mümkündür və Dövlət Yanğın Nəzarəti Xidmətinin qarşısında duran əsas vəzifə budur.

Dövlət Yanğın Nəzarəti Xidməti hər il payız-qış mövsümünün başlanması ilı əlaqədar müxtəlif qabaqlayıcı tədbirlər həyata keçirir.

Baş verən ən faciəli yanğın hadisəsi insan tələfatı ilə nəticələnən yanğınlardır və təbii ki, bu da mənzillərdə baş verən yanğınlar zamanı qeydə alınır. Mütəmadi olaraq əhali arasında təbliğat xarakterli söhbətlər aparılsa da, kütləvi informasiya və təşviqat vasitələrindən istifadə edərək maarifləndirmə işləri görülsə də vətəndaşlarımız eyni səhvləri yenidən buraxır, beləliklə də yeni-yeni yanğınlara, digər fəlakətlərə yol açırlar. Nəticədə isə ağır xəsarətlərlə xəstəxanaya düşür və ya həyatlarını itirirlər. Odur ki, hündürmərtəbəli binalara, yaşayış evlərinə baxışların keçirilməsi, əhali arasında yanğın-texniki biliyin artırılması məqsədilə təbliğat xarakterli işlərin görülməsi vacibdir və bu məsələ daimi olaraq müəssisə rəhbərlərinin diqqətində olmalı, Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları tərəfindən verilmiş göstəriş və tövsiyələrin icrası ilə bağlı müvafiq tədbirlər görməlidirlər.

Payız-qış mövsümünün başlanması ilə əlaqədar hər il Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları mənzillərdə baş verən yanğınların və insan tələfatının qarşısını almaq məqsədilə ərazi və regionlarda yanğın təhlükəsizliyinin artırılması ilə bağlı təbliğat xarakterli tədbirlər həyata keçirirlər.

Yanğınların təhlilinin nəticəsi göstərir ki, mənzillərdə yanğınların baş verməsinin əsas səbəbi elektrik və qaz cihaz və qurğularının quraşdırılması və istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması, odla və qaynaq vasitəsilə işlər görülərkən ehtiyatsızlıq, uşaqların odla dəcəlliyi və s. olmuşdur. Ona görə də respublika ərazisində payız-qış mövsümü ilə əlaqədar havaların soyumasını nəzərə alaraq, yanğınların baş verməsinə şərait yaradan amillərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin gücləndirilməsi məqsədilə yaşayış binalarındakı mənzillərdə sakinlər arasında maarifləndirmə işləri aparılmış, işıqlandırmaq üçün açıq alovdan, yəni şam və məşəldən istifadə edilməsinin, sobanın üzərində və yanında paltar qurudulmasının, kustar üsulla düzəldilmiş elektrik avadanlıqlarından və cihazlarından istifadənin, bacaların yaxınlığındakı çardaqlarda tez alışan əşya və məişət qaz balonlarının saxlanılmasının, nasaz qaz cihazlarının istismarının, uşaqların odla dəcəlliyinin real yanğın təhlükəsi yaratdığı əhalinin nəzərinə çatdırılmışdır. Eyni zamanda bu məqsədlə sakinlərə Xidmət tərəfindən hazırlanmış "Vətəndaşların nəzərinə" adlı yaddaş vərəqələrinin paylanması, binaların lift kabinələrinə "Mənzildə yanğın zamanı davranış qaydaları", "Dəm qazı təhlükəsindən qorunma qaydası" adlı stikerlər yerləşdirilməsi təmin edilmişdir. Bu işə mənzil-kommunal istismar sahələrinin, qaz və elektrik enerjisinin istismarı idarələrinin, rayon bələdiyyə və icra hakimiyyətlərinin nümayəndələri də cəlb edilmişdir.

Son zamanlar qaz cihazlarının istismarı zamanı əhali arasında dəm qazından zəhərlənmə halları qeydə alınmaqdadır. Müəyyən olunub ki, bu hadisələrin əksəriyyəti vətəndaşların təhlükəsizlik qaydalarına riayət etməməsi səbəbindən baş verir. Dəm qazından zəhərlənmə halı yanğın olduqda, sobanın qapağı erkən bağlandıqda, qarajda, qapalı məkanda avtomobil mühərriki işlədikdə baş verir. Mənzillərdə isə dəm qazından zəhərlənmə təhlükəsi əksər hallarda evi qızdırıcı cihazlarla qızdırarkən və ya hamam otağında baş verir.

Qaz cihazlarından təlimata uyğun düzgün istifadə edilməməsi səbəbindən isə insan itkisi və xəsarət alması ilə nəticələnən partlayış, yanğın, zəhərlənmə kimi bədbəxt hadisələr də baş verir. Bu cür fövqəladə halların baş verməməsi üçün yaşayış sahələrində standartlara uyğun olmayan qaz cihazlarından istifadə etmək qadağandır. Hər bir məişət qaz cihazının təhlükəsizlik qurğuları daim saz vəziyyətdə olmalı və onlardan istifadə zamanı müəyyən edilmiş təhlükəsizlik qaydalarına tam riayət edilməlidir!

Əhali ilə görüşlərdə yanğına qarşı təbliğat apararkən onların nəzərinə çatdırılmalıdır ki, yaşayış binalarının bloklarında və mərtəbələrində quraşdırılmış paylayıcı elektrik lövhələrinin saz vəziyyətdə olmasına, "Elektrik qurğularının quraşdırılması qaydaları" və "Yanğın təhlükəsizliyi qaydaları"nın tələblərinə uyğun olaraq istismar edilməsinə, elektrik lövhələrində yalnız standarta uyğun elektrik qoruyucularından istifadə olunmasına diqqət yetirilməlidir. Həmçinin çardaqların daim təmiz saxlanılması, taxta konstruktiv elementlərinin odadavamlı məhlulla hopdurulması, mövcud pəncərələrin şüşələnməsi, çardağa çıxış qapılarının, eləcə də yanğına qarşı divarlarda və ventilyasiya kameralarında quraşdırılmış qapıların bağlı və kip vəziyyətdə olması təmin edilməlidir. Yaşayış binalarının zirzəmiləri daim təmiz saxlanılmalı, giriş qapıları bağlı vəziyyətdə olmalı və açarlar birinci mərtəbədə yerləşən mənzillərdən birində və yaxud komendatda olmalıdır. Binaların birinci mərtəbəsində və zirzəmisində fəaliyyət göstərən obyektlərdə qaz cihazlarından istifadəyə yol verilməməlidir.

Yaşayış binalarının birinci mərtəbəsində layihə üzrə nəzərdə tutulmuş yanğın keçidlərinin açıq vəziyyətdə saxlanılmasına, başqa məqsədlər üçün istifadə edilməməsinə daim diqqət yetirilməlidir. Keçidlərin müəyyən təşkilat və idarələr, sakinlər tərəfindən tutulmasına imkan verilməməlidir.

Yaşayış evlərində elektrik və qaz cihazlarının təhlükəsiz istifadə olunmasına, tüstü boru və bacalarının düzgün quraşdırılmasına, təmizlənməsinə fikir verilməlidir. Yaşayış binalarının birinci mərtəbəsində, zirzəmisində tezalışan və yanar mayelərin saxlanılması, istənilən müəssisələrin, emalatxanaların və digər obyektlərin fəaliyyət göstərməsi, pilləkən qəfəslərində və dəhlizlərdə əl damlarının yaradılması, eləcə də pilləkən marşları altında və onların meydançalarında ev əşyalarının yığılması qadağandır.

Hündürmərtəbəli yaşayış binalarının mərtəbələrində yanğına qarşı daxili yanğın su kranlarını şlanqlarla, birləşdirici başlıq və lülələrlə təchizini, su təzyiqini qaldırmaq üçün nəzərdə tutulmuş nasosxanaların,avtomatik yanğınxəbərverici siqnalizasiya sisteminin, tüstüqovucu və ventillyasiya sistemlərinin işlək vəziyyətdə olması təmin edilməlidir.

Qəsəbə və kənd yaşayış məntəqələrində, fərdi həyətyanı sahələrdə də quru otların daşınması, yığılması, sobalardan istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmasına da ciddi diqqət yetirilməlidir. Bütün bunlar isə əlbəttə ki, mənzillərdə, fərdi yaşayış sahələrində yanğınların baş verməməsinə və hadisə zamanı insan itkisinin qarşısının alınmasına xidmət edir.

*FHN DYNX-nin Yanğına Qarşı Təbliğat Şöbəsi.*

# Əzizə Cəfərzadənin əsərlərinin təqdimatı ilə bağlı görüş keçirilmişdir

Salyan Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin mərkəzi kitabxanasında Azərbaycanın xalq yazıçısı, "Şöhrət" ordenli, ictimai xadim, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadənin anadan olmasının 100 illiyi ərəfəsində onun yeni, nəfis tərtibatla çap edilmiş on iki cildlik seçilmiş əsərlərinin təqdimatı ilə bağlı görüş keçirilmişdir.

Görüşdə mərhum yazıçının oğlu Turan İbrahimov, təhsil, mədəniyyət işçiləri, ictimaiyyətin nümayəndələri iştirak etmişlər.



Salyan Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Səidə Əliyeva tədbirin məqsəd və məramı barədə məlumat vermişdir.

Çıxış edənlər rayon ağsaqqallar şurasının sədri Hacı Beydulla İmanov, rayon ziyalılar birliyinin sədri Allahverdi Piriyev, Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimov, tarixçı-tədqiqatçı Sahib Həsənov, yazıçı-publisist Mətləb Axundov, dil-ədəbiyyat müəllimi Günel Orucova bildirmişlər ki, görkəmli yazıçı 1921-ci il dekabrın 29-da Bakı şəhərində anadan olmuşdur. İkiillik Müəllimlər İnstitutunu bitirdikdən sonra 1942-1944-cü illərdə Ağsu rayonunun Çaparlı kəndində müəllim işləmişdir. 1946-1947-ci illərdə ekstern yolu ilə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1944-1946-cı illərdə "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin rəisi, 1947-1949-cu illərdə teatr texniki məktəbinin müdiri, 1950-1955-ci illərdə pedaqoji institutda dosent, kafedra müdiri, 1957-1974-cü illərdə Azərbaycan Elmlər Akademiyasının əlyazmalar institutunda şöbə müdiri, 1974-cü ildən isə Bakı Dövlət Universitetinin professoru vəzifəsində çalışmışdır. Natiqlər Əzizə Cəfərzadəni əsasən tarixi roman janrında yazılan dəyərli əsərlərin müəllifi kimi səciyyələndirmiş, onun hekayələrinin, romanlarının məzmunu, əsas məğzi, mahiyyəti, ideyası barədə ətraflı söhbət açmış, oxuculara tarixi və digər bilgilərin, yüksək mənəvi-əxlaqi keyfiyyətlərin, Vətənə, elə, obaya sevgi, məhəbbət hisslərinin aşılanmasında önəmli rolundan bəhs etmişlər.

Yazıçının oğlu Turan İbrahimov anasının yenidən çap olunmuş əsərlərinin hər biri barədə müfəssəl məlumat vermiş, onların işıq üzü görməsində çəkilən böyük zəhmətdən danışmış, tədbiri təşkil etdiklərinə görə, rayon rəhbərliyinə və mərkəzi kitabxananın kollektivinə dərin minnətdarlığını bildirmişdir.

# Vətənin müdafiəsinə hazıram

Salyan Rayon Gənclər və İdman İdarəsi və Salyan Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Salyan Olimpiya İdman Kompleksində Vətən Müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyü üzrə rayon birinciliyi keçirilmişdir. Öncə torpaqlarımızın bütövlüyü uğurunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbirdə çıxış edən Salyan Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Aqşin Qasımov və Salyan Rayon



Təhsil Şöbəsinin metodisti Emin Məlikov yarış iştirakçılarını salamlayaraq bildirdilər ki, Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsində yeni bir səhifə yazdı. Bu gün Azərbaycan ordusu xalqımıza məxsus olan zəngin hərbi ənənələri böyük məsuliyyət və şərəflə davam etdirərək ərazi bütövlüyümüzü bərpa etdi. Qeyd etdilər ki, əsas məqsəd çağırışaqədər və çağırışyaşlı gəncləri Vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə Vətənə məhəbbət və vətənpərvərlik hissini artırmaq, "VMH" poliatlon çoxnövçülüyünü yeniyetmə və gənclər arasında təbliğ etmək və ümumtəhsil məktəblərinin idman klublarının işini fəallaşdırmaq, təkmilləşdirmək və "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyünü təbliğ etməyə xidmət edir.

4 növçülük üzrə ( 100 metr və 2000 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atmaq) keçirilən "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyü üzrə rayon birinciliyinin sonunda ən yüksək xal toplayan komandalardan Salyan rayon Yuxarı Xalac - 2 kənd tam orta məktəbin komandası III yeri, Salyan şəhər 8 saylı tam orta məktəbin komandası II yeri, Salyan rayon Qarabağlı-1 kənd tam orta məktəbin komandası I yeri qazandı. Salyan şəhər 6 saylı tam orta məktəbin və Salyan rayon Seyidsadıqlı kənd tam orta məktəbin komandası yarışda yüksək çıxışı ilə fərqlənən komanda oldu.

Birinciliyin qalibləri və fərqlənmiş iştirakçıları rayon gənclər və idman İdarəsinin diplomları ilə təltif edildilər.

# Şəhidlərimizin qisası döyüş meydanlarında alındı



Vətən dediyimiz və hamımız üçün son dərəcə müqəddəs, əziz olan sözlə yanaşı durmağa yaraşdırdığımız söz varsa, o da ana sözüdür. Anasından, Vətənindən doymayan, Ana Vətən deyərək torpaqlarımızın azadlığı uğrunda döyüşlərə atılan oğullardan biri Təhməz Seyfəli oğlu Şirinov 1957-ci il oktyabrın 23-də Salyan rayonunun Xalac kəndində dünyaya göz açmışdı. Orta məktəbi bitirdikdən sonra Su Kəmərləri İdarəsində çilingər işləyirdi. Təhməz adi insan ömrünü yaşayırdı. Heç bir başqa iddiası olmayan Təhməzi yalnız ailə problemləri, ailə qayğıları düşündürürdü. Bu problemləri həll etdikcə sevinc, fərəh hissləri keçirirdi. Lakin bu sevinc, bu fərəh uzun sürmür. Nankor, xain qonşularımızın torpaqlarımıza təcavüzü onun rahatlığını, dincliyini tamamilə əlindən almışdı. Torpaqlarımızın nemətləri ilə böyüyən ermənilərin bu namərd hərəkəti vətənpərvər həmyerlimizi bərk qəzəbləndirmiş, onun nifrətinə səbəb olmuşdu. Düşünürdü ki, nəyin bahasına olursa -olsun, azğın, qudurmuş düşmənin dərsini vermək, ona öz yerini göstərmək lazımdır. Odur ki, qəti qərarını verərək 1992-ci ilin 4 iyulunda birbaşa ön cəbhəyə yollandı. İlk döyüş yolu Ağdərədən başlandı. İki il Sovet Ordusunda xidmət edən Təhməz artilleriyanın sirlərinə dərindən yiyələnərək mahir topçu kimi ixtisaslaşmışdı. Təhməz öz silahdaşları ilə birlikdə Nerkin-Qrataq, Drambon, Yuxarı Güneypəyə, Aterk, Mehmanə kimi kəndlərin azad edilməsində igidlik, şücaət göstərdi.

1992-ci il oktyabrın 2-si idi. Dörd avtomobildən ibarət maşın karvanı döyüş xəttinə hərbi sursat aparırdı. Təhməz dörd silahdaşı ilə irəlidə gedən maşında idi. Hərbi sursatı döyüşçü yoldaşlarına çatdırmağa tələsirdi. Bu anda erməni faşistləri qranatomyotdan maşınları aramsız atəşə tutdular. Təhməzin olduğu maşını od-alov bürüdü. İgid həmvətənimiz silahdaşları ilə birlikdə həlak olaraq əbədiyyətə qovuşdu.

Dövlətimiz tərəfindən onun bu vətənpərvərliyi layiqincə dəyərləndirilmişdir. Xalac kənd səkkizillik məktəbi Vətəni üçün canını fəda etmiş Təhməz Şirinovun adını daşıyır.

Bu gün Təhməzin də, digər şəhidlərimizin də ruhları şad, rahatdır. Çünki torpaqlarımızı qanı, canı bahasına işğaldan azad edərək tarixi ədalətin bərpasını təmin edən, xalqının başını ucaldan qəhrəman hərbçilərimizin qanı yerdə qalmamış, şəhidlərimizin qisası məhz döyüş meydanlarında alınmışdır.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

# *Şəhid ailələri ilə görüş keçirilmişdir*

Salyan Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin mərkəzi kitabxanasında şəhidlər Elmir Məmmədov və Zəmanət İbrahimovun ailə üzvləri, doğmaları ilə görüş keçirilmişdir. Görüşdə mədəniyyət, təhsil işçiləri iştirak etmişlər.

Öncə şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilmiş, şəhidlər Elmir Məmmədov və Zəmanət İbrahimovla bağlı videoçarxlar nümayiş etdirilmişdir.

Tədbirdə çıxış edənlər rayon mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru Səidə Əliyeva, Salyan Dövlət Kukla Teatrının direktoru, Azərbaycanın və Dağıstanın Əməkdar artisti Laləzar Hüseynova, kitabxananın şöbə müdiri Səadət Yarıyeva, 4 saylı məktəbin müəllimi Xəyalə Əliyeva Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı tarixi Zəfərdən söz açmış, bu Qələbəyə görə igid əsgər və zabitlərimizə, şəhidlərimizə, qazilərimizə borclu olduğumuzu vurğulamışlar.

Şair-jurnalist Əzizağa Məmmədli vətənpərvərlik mövzusunda yazdığı "Mən qalib əsgərəm", "Mən şəhid olmuşam", "Şəhidim mənim" və "Çörəyim halalın olsun, ay oğul" şeirlərini söyləmişdir. 4 saylı məktəbin şagirdləri vətənə, torpağa, şəhidlərə həsr edilmiş şeirlər səsləndirmişlər.

Şəhid Elmirin anası Nərgiz xanım, şəhid Zəmanətin həyat yoldaşı Sevinc xanım vətən yolunda canlarını fəda edərək milli qürurumuzu özümüzə qaytarmış doğmaları ilə qürur duyduqlarını bildirmiş, onlara daim xüsusi diqqət və qayğı göstərən rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmova minnətdarlıqlarını bildirmişlər.

# Zəngilanlılar tezliklə doğma ocaqlarına qayıdacaqlar



1993-cü il oktyabrın 29-da erməni faşistləri tərəfindən zəbt olunan Zəngilan uzun illər idi ki, mənfur düşmənin əsarəti altında idi. Ermənistan tərəfindən ölkəmizə qarşı aparılan işğalçı müharibə nəticəsində 35 min nəfər zəngilanlı öz yurd yuvasını tərk etmək məcburiyyətində qalmış, 188 nəfər şəhid olmuş, 44 nəfər itkin düşmüşdü. Zəngilanda 9 məktəbəqədər müəssisə, 13 məktəb, 1 texniki peşə, 1 musiqi məktəbi, 95 kitabxana, 8 mədəniyyət evi, 23 klub, 22 kinoqurğu işğal zamanı yerlə-yeksan edilmişdi. Bu diyar öz zəngin sərvətləri ilə bütün dünyada məşhurdur. Ürəkağrıdıcı haldır ki, Zəngilanın sənaye əhəmiyyətli ehtiyatları, 6,5 ton qızıl və üç min ton mis təşkil edən Böyük Vesnəli qızıl yatağı düşmənin işğalı altında qalmışdı.

Ulu Öndər, xalqımızın Ümummilli Lideri Heydər Əliyev və onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin böyük səyləri və yorulmaz fəaliyyəti sayəsində müqəddəs torpaqlarımızın azad olunması ilə bağlı önəmli sənədlər qəbul edilmişdi. BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin, 120 dövləti özündə birləşdirən, BMT-dən sonra dünyada ən böyük təşkilat olan Qoşulmama Hərəkatının, Avropa Şurasının, İslam Konfransı Təşkilatının və digər mötəbər qurumların qərarlarının qəbul olunması dövlətimiz tərəfindən həyata keçirilən böyük işlərin sayəsində mümkün olmuşdu. Lakin Ermənistanın qeyri-obyektiv mövqeyi, beynəlxalq ictimaiyyətin bu ədalətsiz mövqeyə ciddi münasibət göstərməməsi üzündən xalqımızın taleyüklü probleminin həlli mümkün olmurdu. Uzun illər ərzində Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan ATƏT heç bir irəliləyişə nail ola bilmədi.

Məhz 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsində Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuz 44 gün ərzində işğalçıların əsarət altında saxladıqları əraziləri, o cümlədən oktyabrın 20-də Zəngilanı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Vətən müharibəsindəki Zəfərdən sonra ölkə başçımız İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizin, həmçinin Zəngilanın Cənubi Qafqaz regionunda ən abad, müasir zonaya çevriləcəyini bəyan etmişdir. Və hal-hazırda böyük işlər görülməkdə, önəmli layihələr həyata keçirilməkdədir.

**Etibarsızdır**

“Mehdi” kəndli fermer təsərrüfatına məxsus olan 7000426851 və 7000424322 saylı VÖEN itdiyi üçün etibarsız sayılır

**Allah rəhmət eləsin**

Salyan rayon prokurorluğunun kollektiv Azərbaycan Respublikası Baş Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları İdarəsinin kriminalistika şöbəsinin prokuroru Mübariz Bayramova, qardaşı

RAMİZİN

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Salyan rayon “Qələbə” qəzetinin kollektivi Neftçala rayonu “Gündoğar” qəzetinin baş redaktoru

HABİL ƏSƏDOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor: Rüstəm Məlikov.

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Telefonlarımız: (021)255-23-68, 255-29-26
E.mail:qelebesalyan@gmail.com
Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92

Qeydiyyat N478.
Tiraj: 392 Sifariş: 31-32
Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və fiziki şəxs Zeynalov Bayram Nəzər oğluna məxsus “BZ” mətbəəsində çap edilmişdir

Kapital Bankın Salyan filialında hesab
№AZ17AİİB33070019444300222143
VÖEN:7000080071

Məsul növbətçi: Ə.B.Məmmədli